Aİ Tvinninq layihəsi AZ08/ENPPCA/FI/06
“Azərbaycan Respublikası
Dövlət Statistika Komitəsinə dəstək”

# MƏLUMAT BÜLLETENİ 5

## Bu buraxılışda


| ***Mövzu*** | **Səhifə** |
|---|---|
| *Biznes Statistikasında məlumatların toplanması üçün vahid yanaşma* | 1 |
| *İdarəetmə Komitəsinin beşinci iclası* | 2 |
| *Fəaliyyətlər rəqəmlərlə* | 3 |
| *Komponentlər üzrə fəaliyyətlər* | 3 |
| *Beşinci rübdə layihənin nailiyyətləri* | 4 |
| *Benefisiar ekspertlərin qiymətləndirməsi* | 4 |
| *Dövlətstatkomdan digər xəbərlər və tədbirlər* | 5 |
| *Təlim səfəri şəkillərlə* | 6 |
| *Əlaqəli şəxslər* | 7 |


## Biznes Statistikasında məlumatların toplanması üçün vahid yanaşma (Komponent 3.2 və 3.3-ün rəhbəri cənab Yusif Yusifov ilə müsahibə)

*Statistik metodologiyanın təkmilləşdirilməsi əlati kimi Tvinninq sizin gözlədikləriniz ilə uyğun gəldi?*

Beynəlxalq təcrübənin öyrənilməsi, daha qabaqcıl təcrübənin tədqiqi və tətbiqi statistikanın inkişafı üçün çox zəruridir. Bu baxımdan Tvinninq layihəsinə statistika sahələrinin qoşulması vaxtında atılmış bir addımdır və bu həmçinin, Avropa standartlarının ölkədə daha yaxşı tətbiqinə imkan yaradır. Layihə çərçivəsində tərəfdaş ölkələrlə təcrübə mübadilələrinin aparılması bilik və bacarıqların artırılmasına əlverişli imkanlar yaratmışdır.

*Bu vaxta qədər hansı praktik nəticələr əldə olunub?*

Biz layihə çərçivəsində hər bir görüşdə, təlim səfərində konkret vəzifələr müəyyənləşdiririk. Hər bir görüşün nəticələri Komitənin Kollegiyasında müzakirə olunur və konkret qərarlar çıxarılır. Qısaca olaraq biznes statistikası sahəsində praktiki görülmüş işləri aşağıdakı kimi sadalamaq olar:



- Sahə şöbələrinin işçilərindən ibarət biznes statistikasına dair işçi qrupun yaradılması;
- Qısamüddətli biznes statistikaya dair göstəricilər sisteminin və metodoloji izahatların hazırlanması;
- Struktur biznes statistikaya dair göstəriciləri sisteminin və metodoloji izahatların hazırlanması;
- Biznes statistikaya dair beynəlxalq standartların, metodologiyaların öyrənilməsi məqsədilə müvafiq şöbələrin iştirakı ilə seminarın keçirilməsi;
- Müvafiq nəşr məlumatlarında zəruri dəyişikliklərin edilməsi;
- İnteqrasiya olunmuş yeni hesabat formasının hazırlanması;
- Mövcud hesabat formalarının təkmilləşdirilməsi;
- Biznes statistikası üzrə statistik vahidlərin növlərindən və fəaliyyət sahəsindən asılı olaraq statistik yükün daha aydın təsviri məqsədilə məlumat kitabçasının,

müşahidələrin təşkilinin vahid qaydalarının (reqlament) hazırlanması;

- Struktur biznes statistikası haqqında göstəricilərə dair məlumatların rəsmi statistikada mövcudluq vəziyyətininin təhlili və zəruri məlumatların əldə olunması məqsədilə təkliflərin hazırlanması;
- Sahibkarlıq statistikasına dair mövcud məlumatların ümumiləşdirilməsi və yekun məlumatların alınması məqsədilə müvafiq proqram təminatına dair məsələ qoyuluşunun hazırlanması;
- Mövsümilik indeksinin və iş günləri ilə bağlı düzəliş əsasında indekslərin yenidən hesablanması üçün Avrostatın DEMETRA proqramının öyrənilməsi və tətbiqi;
- Biznes statistikası üzrə beynəlxalq təcrübəni öyrənərək informasiya sisteminin yaradılması ilə bağlı təkliflərin təqdim edilməsi;
- Uçot vahidlərinin registr əlamətlərinin yoxlanması və aşkar edilmiş fərqli məlumatların registrdə düzəliş edilməsi üçün təkliflərin Statistika işlərinin əlaqələndirilməsi şöbəsinə təqdim olunması;
- "Biznes statistikası üzrə statistik idarəetmə sisteminə dair mövcud prosesin metodoloji konsepsiyası"nın hazırlanması;
- Biznes statistikasının və milli hesablar sisteminin tələblərinə uyğun olaraq bazar xidmətləri göstərən təsərrüfat subyektlərinin, o cümlədən fərdi sahibkarların uçotunun təkmilləşdirilməsi haqqında təkliflərin hazırlanması.

*Layihənin qalan müddətindən hansı nəticələri gözləyirsiniz?*

Əsas məsələ layihədən maksimum yararlanmaqdır. Burada həm beynəlxalq təcrübə, həm standartlar, vahid metodologiya və s. məsələlər əhatə olunur. İşçilər təcrübələr əldə edir, sistemin inkişafı üçün təkliflərini verir və uğur əldə etmək üçün fürsətdən yararlanırlar.

*Sizin fikrinizcə nəyi təkmilləşdirmək olardı?*

Layihədə əsas məsələlərdən biri də problemin qarşılıqlı həll edilməsidir. Doğrudur, tərəfdaş ölkələrin mütəxəssisləri layihə çərçivəsində öz məsləhətlərini verirlər. Lakin, bir sıra hallarda məsləhətlə yanaşı, praktiki dəstəyin gücləndirilməsi, vacib sahələrdə pilot layihələrin həyata keçirilməsi və nəticələrin qiymətləndirilməsi çox zəruridir.

*Necə düşünürsünüz istənilən təkmilləşdirmə üçün planlaşdırılmış fəaliyyətlər kifayət etdi yaxud yenidən əlavə dəstəyə ehtiyac olacaq?*

Biznes statistikası bir çox sahələri əhatə edir və elektron hesabatlara keçid, meta məlumatlar sisteminin yaradılması, informasiya sisteminin yaradılması bu yolun başlanğıcıdır. Ona görə də, qarşıya qoyduğumuz məqsədlər kifayət qədər genişdir və onlara çatmaq üçün səylərin davam etdirilməsi vacibdir. Ola bilər bu mövzuya yaxın digər Tvinninq layihəsi yeni imkanlar yaratsın.

## İdarəetmə Komitəsinin beşinci iclası

İdarəetmə Komitəsinin beşinci iclası 2011-ci ilin aprel ayının 5-də Dövlətstatkomda keçirilmişdir.

ÜD Layihə rəhbəri cənab Raupach qeyd etdi ki, 6 təlim səfərindən cəmi 1-i qarşıda olmaqla planlaşdırılmış 35 ümumi fəaliyyətdən 25-i artıq yerinə yetirilmişdir, İkinci Komponent olan Müşahidə olunmayan iqtisadiyyata aid fəaliyyətlər tamamlanmışdır.

Dördüncü Komponent "Qiymət Statistikası" – nın rəhbəri xanım Natella Quliyeva 14-17 fevral 2011-ci il tarixlərində Çexiya Statistika İdarəsinə təşkil olunan təlim səfəri zamanı iştirakçıların adıçəkilən idarədə Milli Hesablar və ikiqat deflyasiyanın tərtib olunması üçün istehsalçılarının qiymət indeksinin istifadəsinin təcrübəsində dair ətraflı bilgilər əldə etdiyini vurğuladı. Əsas mövzulara aiddir: ehtiyat və istifadə cədvəllərinin tərtibi; qiymət indekslərindən istifadə etməklə aralıq istehlakın deflyasiyası; buraxılış və aralıq istehlak matrisası; ÜDM-in son istifadəsi; illik və rüblük MHS-nin matrislərinin tərtibi; illik və rüblük hesablarda deflyasiya metodları. Çexiya Statistika İdarəsinin Qiymət statistikası üzrə mütəxəssisləri 4 sektor üzrə - istehlak, istehsalçı, idxal-ixrac və xidmətlər üzrə ayrı-ayrılıqda məlumatlar vermişlər.

Xanım Quliyeva həmçinin əlavə etdi ki, bizim təcrübədən fərqli olaraq qiymət sahəsində xidmətlər üzrə nəqliyyat, poçt, telekommunikasiya sahələrindən başqa Çexiya təcrübəsində bir sıra xidmətlər üzrə də indekslər hesablanır ki, bunlar da aşağıdakılardır

- ✓ İnformasiya reklamı
- ✓ Kommunal xidmətləri
- ✓ Mühasibat uçotu üzrə xidmətlər
- ✓ Maliyyə üzrə xidmətlər
- ✓ İnformasiya texnologiyası
- ✓ Hüquqi xidmətlər

Natella xanım maliyyə xidmətləri sektorlarında qiymət indekslərinin

hesablanmasını əhatə etmək, yaxud ən azından Aİ üzv ölkələrində bunun harada istifadə olunduğunu araşdırmaq məqsədilə artıq planlaşdırılmış iki missiyadan əlavə yeni bir missiyanın təşkil edilməsini təklif etdi.

Komponent 1 "Milli hesablar" və Komponent 2-nin "Müşahidə olunmayan iqtisadiyyat" rəhbəri Nuru Süleymanov bildirdi ki, hesabat dövründə dördüncü komponentin rəhbəri xanım Natella Quliyeva tərəfindən qeyd olunan birgə təlim səfərindən başqa heç bir missiya və təlim səfəri olmamışdır. Planlaşdırılmamış hədəflərə baxmayaraq Birinci Komponent öz işini davam etdirmiş və Ehtiyat və istifadə cədvəlləri əsasında deflyasiya prosesinin təkmilləşdirilməsini, yeni istehsalçı qiymət indeksi və deflyasiya aid tapşırıqları yekunlaşdırmışdır. Vergi müfəttişləri ilə Pilot müayinə də tamamlanıb. İkinci Komponent "Müşahidə olunmayan iqtisadiyyat"-da istifadə üçün səmərəli məlumatlar əldə olunmuşdur. Cənab Süleymanov FİSİM və maliyyə xidmətlərinin qiymət indeksləri kimi hesablamaların tətbiq olunduğu ölkələrdə əlavə birgə fəaliyyətin keçirilməsi təklifini dəstəklədiyini bildirdi. O vurğuladı ki, Tvinninq layihəsi çərçivəsində görülən işlər Dövlətstatkomun Proqramı və Kollegiyanın qərarları ilə uyğun gəlir.

Komponent 3.2 Struktur Biznes Statistikası və 3.3 Qısamüddətli Biznes Statistikanın rəhbəri cənab Yusif Yusifov iki fəaliyyət haqqında danışdı. İlk tədbir SAS və SBS proqramlarının təqdim olunduğu struktur biznes statistikasının yaradılmasına dəstək vermək və onun gələcək inkişafı üçün DESTATİS-də təşkil olunan təlim səfəri olmuşdur. BÖ nümayəndələri DESTATİS-də demək olar ki, hər sektordan olan ekspertlər ilə görüşmək imkanına əldə etmişdir. Biznes statistikası üzrə vahid müayinə forması və məlumat sisteminin təkmilləşdirilməsinə həsr olunan ətraflı təqdimat edilmişdir. Dövlətstatkomda meta məlumatlar və məlumatın keyfiyyətinin idarə olunması prioritet olduğundan struktur Biznes Statistikası üzrə təşkil olunmuş əlavə fəaliyyəti tamamlamaq məqsədilə yeni ikinci əlavə tədbirin keçirilməsini təklif etdi. Belə ki, adıçəkilən ilk əlavə tədbir benefisiar tərəfin yeni təşəbbüslərinin nəticəsi kimi Bolqarıstan və Alman ekspertlərin iştirakı ilə keçirilmişdir.

Komponent 3.1 Biznes Registrin (BR) rəhbəri cənab Elçin Hacı 21-24 fevral 2011-ci il tarixlərində BR üzrə yerinə yetirilən son missiyanın nəticələrini təqdim etdi. Dövlətstatkomun əməkdaşları alman ekspert cənab Gerhard Stockun təqdimatında Almaniyada BR-in xüsusiyyətləri ilə və bəzi xüsusi hallər ilə tanış olmuşdur. Baxmayaraq ki, bu sahədə Aİ qanunvericiliyi bütün ölkələr üçün vahiddir, əyani cəhətdən ən azından BR-də statistik sistemlərə hər ölkənin müxtəlif yanaşması mövcuddur. O BR-in təşkili, fəaliyyəti və aparılmasının müqayisə olunması üçün Dövlətstatkomun nümayəndələrinə imkan yaradacaq əlavə tədbirə ehtiyac olduğuna əsas verdi.

## 2011-ci ilin may ayına qədər fəaliyyətlər rəqəmlərlə

| | |
|---|---|
| **Yerinə yetirilən missiyalar** | 31 |
| **-% cəmi** | 86% |
| **ÜD-dən cəlb olunan ekspertlər** | 37 |
| **BD-dən olan iştirakçılar** | 43 |
| **Müzakirə olunan mövzular** | 138 |

## Komponentlər üzrə fəaliyyətlər

| | | |
|---|---|---|
| **Birinci Komponent** | 12 | 86% |
| **İkinci Komponent** | 5 | 100% |
| **Üçüncü Komponent** | 10 | 77% |
| **Dördüncü Komponent** | 4 | 80% |

## Beşinci rübdə layihənin nailiyyətləri

*İkinci komponentdə "Müşahidə olunmayan iqtisadiyyat":*

- ✓ **Vergi müfəttişlərinə aid pilot müayinə tamamlanmış və "Müşahidə olunmayan iqtisadiyyat"da istifadə olunmaq üçün səmərəli məlumat əldə olunmuşdur.**

*Üçüncü komponentdə "Biznes Statistikası":*

- ✓ **Biznes Statistikasında məlumat toplanmasının yeni sistemi üçün metodologiya (vahid hesabat forması) və təşkilatı tədbirlər təsdiq olunmuşdur.**
- ✓ **BÖ mütəxəssislərinə mövsümi düzəlişlər üçün DEMETRA proqram təminatının istifadəsinə dair təlim keçirilmişdir.**

*Dördüncü komponentdə "İstehsalçılarının qiymət indeksi":*

- ✓ **Sənaye və tikinti müəssisələri üçün Pilot müayinə "1 - müəssisə 1 - hesabat" illik sadələşdirilmiş "məsrəflər-buraxılış" cədvəllərinin tərtibi.**

## Benefisiar ekspertlərin qiymətləndirməsi

2011-ci ilin fevral ayının sonuna kimi 16 missiya üçün 74 sorğu toplanmışdır. 2010-cu il fevral ayından – 2011-ci il fevral ayına kimi müşahidə olunan missiyaların ümumi qiyməti 4.6-ya qədər qalxır, buda öz növbəsində maksimum 5.0-ə çox yaxındır.

Müxtəlif komponentlərdən olan BÖ iştirakçılarının qiymətləndirmələri də 4.6 ətrafında stabilləşməklə komponentlər arasında olan fərqlər demək olar ki yoxa çıxır.

Bir qısamüddətli missiya və iki təlim səfəri qiymətləndirmə mövzusu olmuşdur. Qısamüddətli missiya çox yüksək dəyərləndirilmiş və müzakirələrin keyfiyyəti 5.0 balla qeyd edilmişdir. Yüksək səviyyəli tərcümə maksimum olmaqla buna təsir etmişdir. Digər aspektlər də yüksək olduğundan digər rüblərlə müqayisədə beşinci rüb ən öndə durur.



## Dövlətstatkomun təşəbbüsləri (TAIEX)

*Hesabat dövründə TAIEX-in dəstəyi ilə iki fəaliyyət yerinə yetirilmişdir:*

- ***CİS üzrə qiymətləndirmə missiyası** (24-28 yanvar 2011-ci il)*

*Missiya müddətində Dövlətstatkomun əməkdaşları statistik təhlillər və yayım üçün CİS-lərinin yaratdığı imkanlar ilə tanış olmuşdur. Dövlətstatkomun müvafiq şöbələrində CİS-in yaradılması üçün mövcud şəraitin ilkin qiymətləndirilməsi aparılmışdır. Gələcək fəaliyyətlərə dair plan tövsiyə edilmişdir və Dövlətstatkom CİS-in yaradılması üçün konsepsiya sənədinin hazırlanması, həmçinin regional səviyyədə ən müvafiq göstəricilər üçün nümayiş alatinin hazırlanması məqsədilə 2011-ci ilin iyun ayında digər missiya üçün müraciət edəcək.*

- ***Meta məlumatlar sistemi üzrə seminar (2-3 fevral 2011-ci il)***

*Seminarda iştirakçılara meta məlumatlarla bağlı Aİ tələbləri və standartları haqqında məlumat verildi. Seminarın məqsədi Dövlətstatkomun auditoriyasını meta məlumatlarla bağlı lazımi şərtlər və anlayışlar haqqında hazırlamaq idi. Dövlətstatkomda meta məlumatların idarə olunması sisteminin yaradılması üçün Konsepsiya sənədinin hazırlanmasına təkan vermək üçün 2011-ci ilin aprel ayında digər TAİEX missiyası üçün müraciət etmək nəzərdə tutulub.*

## Azərbaycanda Statistikanın Qlobal Qiymətləndirilməsi

Yekun qiymətləndirmə hesabatını tamamlamaq və nəticələr vermək üçün Azərbaycanda Statistikanın Qlobal Qiymətləndirilməsi üzrə ikinci və sonuncu missiya 2010-cu ilin dekabr ayının 2-3 tarixlərində keçirilmişdir. Xanım Hana Šlégrová, cənab Peter Hackl and xanım Rima Gerdziunaite missiyada iştirak etmişdir.



Dr. A. Kotsev CİS-in statistika üçün yaratdığı imkanlarını təqdim edir.
(Fevral, 2011)

## Təlim səfəri şəkillərlə

**Statistiklər rəqəmləri daha yaxşı təhlil etmək üçün ölkənin tarixi və mədəniyyəti ilə tanış olmalıdırlar və işdən sonra onlar bunu edir**

*Praqa, fevral 2011-ci il*



Saldan sağa: *Xanım Natella Quliyeva, Cənab Fərhad Əliyev, Xanım Radka Šmídová, Xanım Jitka Lošanová, Xanım Mələknisə Məhərrımova, Cənab Vitezslav Ondruš, Xanım Elmira Bağırova, Xanım Rana Lazimova, Bələdçi, Cənab Rahib Qocayev, Cənab Petr Musil, Cənab Jaroslav Sixta,*

**Aİ Tvinninq layihəsi AZ08/ENPPCA/FI/06**
**“Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsinə dəstək”**

# MƏLUMAT BÜLLETENİ 5

## Əlaqəli şəxslər

**Layihə qrupu**

| Adı | Vəzifəsi |
|---|---|
| Alxan Mansurov | Layihə rəhbəri, Azərbaycan |
| Ringo Raupach | ÜD Layihə rəhbəri – Almaniya<br>ringo.raupach@destatis.de<br>Tel: +49 611758932 |
| Leonhard Fix | Layihə meneceri - Almaniya<br>leonhard.fix@destatis.de<br>Tel: +49 611758936 |
| Elka Atanasova | II dərəcəlli layihə rəhbəri – Bolqarıstan<br>EAtanasova@NSI.bg<br>Tel: +35929857775 |
| Sergey Tsvetarsky | Tvinninq üzrə Rezident Müşavir<br>tsvetarsky@azstat.org<br>Tel: +99412 5105274 |
| Rahib Qocayev | Tərcüməçi<br>gojayev@azstat.org<br>Tel: +99412 5105274<br>(daxili 22 61) |
| Nüşabə Mehdizadə | RTM-nin köməkçisi<br>nushaba@azstat.org |
| Fərhad Əliyev | RTM-in tərəfdaşı Azərbaycan<br>farhada@azstat.org<br>tel: +99412 4394762 |

**Komponent rəhbərləri**

| Adı | Vəzifəsi |
|---|---|
| Nuru Süleymanov<br>nuru@azstat.org | 1 və 2-ci komponentlərin rəhbəri<br>Milli hesablar və müşahidə olunmayan iqtisadiyyat |
| Yusif Yusifov, yusify@azstat.org<br>Faiq Hacıyev<br>faigh@azstat.org<br>Elçin Hacı<br>elchinh@azstat.org | 3-cü komponentin rəhbəri:<br>Biznes statistikası |
| Natella Quliyeva<br>natella@azstat.org | 4-cü komponentin rəhbəri<br>İstehsalçı qiymət indeksləri |

| Aİ-nın Bakıdakı Nümayəndəliyi | Vəzifə |
|---|---|
| Christophe Casillas | Aİ Layihə Meneceri<br>Santiago.CASILLAS-VACHER@eeas.europa.eu<br>Tel: +994124972063 |

| | Vəzifə |
|---|---|
| Natiq Mədətov | Azərbaycan Respublikası İİN-nin Avropa İttifaqı ilə əməkdaşlıq sektorunun müdiri<br>natig.madatov@economy.gov.az<br>Tel.: 493-88-67 (daxili. 2303) |